**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№274/3** **11 mart 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2015-ci il 01 sentyabr tarixindən 30 sentyabr tarixinədək və 05 oktyabr tarixindən 30 oktyabr tarixinədək keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələri barədə**

«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununu, «Azərbaycan Republikasının Auditorlar Palatası haqqında» Əsasnaməni, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2015-ci il 14 aprel tarixli 261/5 saylı qərarı ilə təsdiq edilmiş “Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları”nı rəhbər tutaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2015-ci ildə keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2015-ci il 1 sentyabr tarixindən 30 sentyabr tarixinədək və 05 oktyabr tarixindən 30 oktyabr tarixinədək keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələrinə dair İxtisasartırma Komissiyasının protokolu nəzərə alınsın (1 və 2 saylı protokol əlavə olunur).
2. Auditorların ixtisasartırma qaydalarının 5.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri – Əzizov Rəmzi Həsən oğlu, Fətiyev Üzeyir Cəmil oğlu, İsrəfilov Afiq Tofiq oğlu, Məmmədov Daşqın Natiq oğlu, Salayev Yunis Elxan oğluna ixtisasartırma kursunda il ərzində üzrsüz səbəbə görə iştirak etmədikləri üçün xəbərdarlıq edilsin.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, E.Hacıyeva) və Auditorların ixtisasartırma komitəsinə (A.Qurbanov) tapşırılsın ki, auditorların, o cümlədən auditor fəaliyyəti ilə müvəqqəti məşğul olmayan şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəqiyyətlə vermiş və reyestrə alınmamış şəxslərin Palatanın növbəti illərdə keçirdiyi ixtisasartırma kurslarında iştirakları təmin edilsin.
4. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, E.Hacıyeva) tapşırılsın ki, ixtisasartırma kurslarında üzrsüz səbəbdən iştirak etməyən auditorların şəxsi işlərində müvafiq qeydlərin aparılması təmin edilsin.
5. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**